Ən çox oxunan qəzet
№ 44 (2829), 2010-cu il
Qiyməti 30 qəpik
ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
11 mart (cümə axşamı)
Qəzet 1996-cı il noyabrın 1-dən çıxır
www.sherg.az



# Qatarlarda qadınlar üçün ayrıca kupelər olacaq

## Azərbaycanda bu məsələnin reallaşması 2011-ci ildə mümkündür

**"ELS" Müstəqil Araşdırmalar Mərkəzi dəmir yolunda sərnişindaşıma sisteminin təkmilləşdirilməsi və qadınlar üçün ayrıca kupelərin təşkil olunması təklifilə çıxış edib. Təklifdə bildirilib ki, son illər bir çox ölkədə sərnişinlərin cinsindən asılı olaraq kupelərdə ayrı yerləşdirilməsi tətbiq edilir.**

Azərbaycanda isə ictimai nəqliyyatın bütün növlərində kişi və qadınlar belə seçim imkanından məhrumdur. Bu isə onlar üçün səfərlər zamanı müəyyən problemlər yaradır: "Qatarlara biletlərin qeydiyyat və satışı elə təşkil olunub ki, bilet alınan zaman sərnişin yol yoldaşları haqqında ən lazımi və elementar məlumatı belə əldə etmək iqtidarında deyil. Sərnişin, xüsusən də qadınlar, yol yoldaşlarının kim olacağından asılı olaraq kupeni seçmək istəsələr, kassirlər onlara heç bir köməklik göstərə bilməz, çünki onların istifadə etdiyi elektron proqramda biletləri almış sərnişinlər barədə məlumat yoxdur. Ona görə də biletin alınması kor-koranə baş verir. Nəticədə qadın kupedə üç kişi ilə birgə səfər etməli ola bilər. Bu, həm onun, həm də kişilərin özləri üçün müəyyən narahatlıqlar yaradır".



Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin (ADDYİ) mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov isə "Şərq"ə açıqlamasında qadınlar üçün nəzərdə tutulan kupelərin hələlik ölkəmizdə reallaşdırılmasının mümkünsüz olduğunu söyləyib. O bildirib ki, hazırda idarədə kompyuterləşdirmə aparılır: "Kompyuterləşmə sistemi ilə bağlı işlər hələ ki yekunlaşmayıb. Bundan sonra yəqin ki, sözügedən məsələyə baxılacaq. Çünki bütün dünyada bu praktikadan istifadə olunur artıq. Bakıya gələn xarici qonaqlar da tələb edirlər ki, biz qadınıq, ona görə də qadınla yol getmək istəyirik. Düzdü, qadın və yaxud da kişi kupedə, SV-də əks-cinsin nümayəndələri ilə yol gedəndə, bu onun üçün komfortlu olmur. Hələ ki, kompyuterləşmə 2010-cu ilin sonunda yekunlaşacaq. Ondan sonra güman ki, bu praktikadan biz də istifadə edəcəyik". N.Əzməmmədovun sözlərinə görə, ailəli şəkildə harasa səfər edənlərdə bu cəhətdən problem yalnız o halda yaşanır ki, bir yer başqa kupedə, digər bir yer isə növbəti kupedə olur: "Amma bizdə 10 gün əvvəldən də bilet satılır. Hansısa ailəvi səfər müəyyənləşdirən vətəndaş bileti əvvəlcədən alanda belə problem yaşanmır".

**Anar**